AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ
BAKI ALİ NEFT MƏKTƏBİ

**ƏMR**
**№ SOCAR20330003030004002OA00206**

**Bakı şəhəri** "21 " Oktyabr 2020-cı il

Bakı Ali Neft Məktəbinin 18.11.2013-cü il tarixli 86 nömrəli
əmrinə dəyişiklik edilməsi barədə

İntizam pozuntularına dair müraciətlərə baxılması, araşdırılması və intizam məsuliyyətinə cəlb edilmə ilə əlaqədar məsələlərin həll olunması prosesinin "Bakı Ali Neft Məktəbinin İntizam Komitəsinin yaradılması haqqında" 07 oktyabr 2020-ci il tarixli SOCAR20330003030004002OA00183 nömrəli əmrinin qüvvəyə minməsi ilə təkmilləşdirildiyini nəzərə alaraq

**əmr edirəm:**

1. Bakı Ali Neft Məktəbinin 18.11.2013-cü il tarixli 86 nömrəli əmri ilə təsdiq olunmuş "Bakı Ali Neft Məktəbinin tələbələrinin daxili intizam qaydaları"nın (bundan sonra – Qaydalar) 2-ci hissəsində "təhqiqatı qaydalarını" sözləri "icraatı" sözü ilə əvəz edilsin, 15-18-ci hissələri ləğv edilsin və yeni redaksiyada 15-ci hissə əlavə edilsin:

"**15. İntizam icraatının aparılması**

Tələbələr tərəfindən mövcud qanunvericilik aktlarına əsasən müəyyən edilmiş vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair müraciətlərə baxılması, araşdırılması və onların intizam məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar məsələlər İntizam Komitəsi tərəfindən həll olunur.".

2. Tələbələrlə iş şöbəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Rahib İsmayılov qeyd olunan dəyişikliklə bağlı məlumatın tələbələrin əldə etməsi və maariflənməsi üçün zəruri addımlar atılmasını təmin etsin.

3. İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi (Z.Ədilova) BANM-ə məxsus internet resurslarında və əl kitabçalarının yeni tərtibatında Qaydalar üzrə qeyd olunan dəyişikliklərin tətbiq olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət Ümumi işlər üzrə prorektor Babək Məmmədova həvalə edilsin.

Əsas: BANM-in 07 oktyabr 2020-ci il tarixli SOCAR20330003030004002OA00183 nömrəli əmri.

**Rektor** **Elmar Qasımov**